İbrahimova Aytən

Azərbaycan Dövlət Pedaqoji Universiteti, müəllim

Email: ayten.cavadova17@gmail.com

Orcid ID: 0009-0000-6123-2399

MƏTNIN SƏRHƏDLƏRI HAQQıNDA.

Xülasə. Mətndə mətnin sərhədləri və onların müəyyənləşdirilməsi mövzusu araşdırılır. Tarixi perspektivdə Aristotel və strukturalist dilçilər (R. Jakobson, H. Pospel, Z. Harris) mətni cümlələr kimi vahidlərə bölməyə çalışmışlar. Azərbaycan dilçiliyində Ə. Xəlilov mərkəzi cümlə vasitəsilə sərhədləri təyin etməyə çalışmış, K.M. Abdullayev isə daxili sintaktik quruluşla sərhədləri müəyyənləşdirmişdir. Mətnin sərhədlərini müəyyən etməkdə təkrarlar (eksplisit və implisit), tematik ardıcıllıq, sintaktik və semantik aspektlər əhəmiyyətlidir. Makro- və mikromətnlərin sərhədləri fərqli formal və semantik xüsusiyyətlərə malikdir. Mətnin quruluşunda tema-remə münasibətləri mühüm rol oynayır. Böyük sintaktik bütövün sərhədləri və forması müstəqil deyil, cümlələr və onların əlaqələri əsasında formalaşır. Mətnin sərhədləri fikrin birliyi, leksik, morfoloji və sintaktik vasitələr, pauzalar və digər ekstralingvistik amillərlə müəyyən olunur.

Açar sözlər. mətnin sərhədləri, sintaktik bütöv, mərkəzi cümlə, makro-mikromətn, eksplisit və implisit təkrar, tema-rema, formal və semantik aspekt, fikrın birliyi

Резюме. В тексте рассматриваются границы текста и методы их определения. В исторической перспективе Аристотель и структурные лингвисты (Р. Якобсон, Г. Поспель, З. Харрис) пытались делить текст на единицы в виде предложений. В азербайджанской лингвистике Э. Халилов пытался определить границы через центральное предложение, К.М. Абдуллаев — через внутреннюю синтаксическую структуру. Для определения границ текста важны повторения (эксплицитные и имплицитные), тематическая последовательность, синтаксические и семантические аспекты. Границы макро- и микротекстов различаются по формальным и семантическим признакам. В структуре текста важны отношения тема-рема. Границы сложной синтаксической единицы и ее форма формируются не самостоятельно, а на основе предложений и их взаимосвязей. Определение границ текста осуществляется с помощью единства мысли, лексических, морфологических и синтаксических средств, пауз и других экстралингвистических факторов.

Ключевые слова. Границы текста, Синтактическое целое, Центральное предложение, Макро- и микротекст, Эксплицитные и имплицитные повторения, Тема-рема, Формальный и семантический аспект, Единство мысли

Summary. The text examines text boundaries and methods for determining them. Historically, Aristotle and structuralist linguists (R. Jakobson, H. Pospel, Z. Harris) attempted to divide texts into sentence units. In Azerbaijani linguistics, Ə. Xəlilov tried to define boundaries using a central sentence, while K.M. Abdullayev relied on the internal syntactic structure. Repetitions (explicit and implicit), thematic sequence, and syntactic and semantic aspects are crucial in determining text boundaries. Macro- and microtext boundaries differ in formal and semantic characteristics. Theme-rheme relations play an important role in text structure.

Boundaries and forms of complex syntactic units are not independent but formed based on sentences and their interrelations. Text boundaries are identified through unity of thought, lexical, morphological, and syntactic tools, pauses, and other extralinguistic factors.

Keywords. text boundaries, syntactic unit, central sentence, macro- and microtext, explicit and implicit repetition, theme-rheme, formal and semantic aspect, unity of thought

Hər bir dövrdə mətni araşdırmağa cəhdlər göstərilmişdir. Aristotel və onun davamçıları, həmçinin struktalizm cərəyanının nümayəndələrindən R.Yakobson, H.Pospela, Z.Harris və başqaları mətni cümlələr kimi vahidlərə bölmək istiqamətində cəhdlər göstərmişlər. Bu tədqiqatlara münasibətdə yalnız təsvirin tamlığı problemi öz həllini tapmamışdır. Təsvir dedikdə ayrıca götürülmüş təsvir deyil, bütöv təsvirlərin tamlığı tədqiq edilməsi məcburidir, mətn bütöv, hərtərəfli təsvir olunmalıdır. Bir elm sahəsi kimi mətnin təşəkkülünün vacib şərti təsvir etdiyi obyektlərin səviyyələrini aydınlaşdırarkən, hər bir səviyyə hissələrə bölünməklə, fasiləsiz ardıcıllıqla düzülməlidir.

Azərbaycan dilçiliyində ilk dəfə Ə.Xəlilov mətnin sərhədlərini təyin etməyə çalışmışdır. Mətndə əsas mərkəzi cümlənin müəyyənləşməsini əsas götürmüşdür. Müəllif sintaktik vahid kimi mətnin sərhədlərini belə təsəvvür eləməyə çalışmışdır: “Həmişə sintaktik bütövün tərkibində bir mərkəzi cümlə olur. Bu mərkəzi cümlənin də daxilində real, konkret mənaya malik olmayan söz və ifadə yerləşir. Aparıcı cümlə, xüsusilə onun tərkibindəki konkret mənası olmayan söz müəyyənləşdirilməlidir. Bu isə ya mərkəzi cümlədən əvvəlki, ya sonrakı, ya da mərkəzi cümlənin hər iki tərəfindən mətnlərin məzmunu ilə mümkündür “ [3, 70].

K.M.Abdullayev mətnin sərhədlərini dilin daxili sintaktik quruluşu ilə müəyyənləşdirirdi [4, 29]. Müəllifin fikrincə cümlə üzvlərinin sabit yeri də mətnin sərhədlərinin müəyyənləşməsinə kömək edir. Mətn cümlə kimi sintaktik kateqoriya olduğuna görə bir sıra əlamətlərə malikdir.

Müəllif mətni cümlə kimi giriş, orta və son olmaqla üç mərhələyə bölmüşdür. Başlanğıc, cümlə quruluşundakı mübtəda vəzifəsində çıxış edərək ümumi girişlə xarakterizə olunur və mətnin əsas tematik düyününə çevrilir. Ümumi giriş isə mətn boyu getdikcə konkretləşir. Konkretləşmə özünü başlanğıc hissənin tam və natamam şəkildə nitq zamanı təkrarı ilə göstərir.

Təkrarlar açıq-eksplist və gizli-implist olmaqla iki cür olur:

-“Açıq-eksplist təkrar daha çox tarixi dil abidələrində-“Orxon-Yenisey abidələri”ndən tutmuş “Oğuznamə”, “Kitabi-Dədə Qorqud” kimi abidələrdə özünü daha aydın göstərir.

-Gizli-implist təkrar daha çox müasir ədəbi dildə və canlı nitq prosesində özünü büruzə verir” [8, 63].

Eksplist-təkrara nümunə olaraq:

Qanturalı aydır: “Yoq, əlbətdə öldürsəm gərəkdir”, -dedi.

Təpəgöz aydır: “ Əmdi qardaşuz, qıma mana! “ –dedi [2, 116-132].

“Ayıtmaq” və “demək” felləri bir-birini üslubi cəhətdən əvəzləyərək çərçivəlilik yaratmaqla sərhədləri müəyyən etmişdir. Bu cür təkrarlar leksik vahid kimi açıq şəkildə çıxış edir.

Gizli təkrarlar ədəbi dil faktlarına aid olur və təkrarlar mətnin başlanğıcında və sonunda olduğu kimi qalmır, amma başlanğıcdakı hər hansı elementə işarə edilir. Bu cür işarələr çərçivəliliyin quruluşunu saxlamağa bəs edir. Mətndə implist-təkrarlar məntiqi-semantik planda çıxış edir. Təkrarlar mətnin sərhədlərini müəyyən edən əsas vasitələrdən biridir. Məsələn:

Birinci həyətdən keçib getdik. Bu həyət kişi qonaqları üçün qayrılıbdır. Ikinci həyətdə hacının arvad-uşağı olurdu. Bu həyət bir qalaca kimidir. Quş quşluğu ilə qanad sala bilməz. Həyətdə arvad qulluqcusu qıvır-qıvır qaynayırdı. Biz ikimiz də pilləkən başında oturduq. Qulluqçulardan biri keçib hacının xanımına xəbər verdi [5, 74].

Bu mətndə son cümlə ilk cümləylə əlaqəli olub, ona işarə edir. Bununla da çərçivəlik yaratmış olub.

Böyük sintaktik bütövlər arasındakı sərhədləri müəyyənləşdirməyin çətin olduğunu qeyd edən V.Q.Admoni ön plana abzasın öyrənilməsini çıxarır. Çünki abzas müəyyən qrafik məna və tematik birliyə malikdir. Müəllif cümlə ilə böyük sintaktik bütövü deyil, cümlə ilə abzası qarşılaşdırır. Məhz onların qarşılaşdırma planında müxtəlif ölçüləri öyrənilir [1, 12].

Mikromətnlər makromətnlərin hissələri olduğu üçün, qrammatik, semantik və üslubi cəhətdən tam formalaşmış nitq parçası hesab olunur. Hər hansı bir nitq parçası üç aspektdə formalaşır; formal, semantik və üslubi. Mətnin sərhədlərini müəyyən edərkən nitq parçasını formalaşdıran formal, semantik və üslubi aspektləri dəqiqləşdirmək mütləqdir:

-mətnin formal aspektinə leksik tərkibi, intonasiya, qrammatik cəhətdən formalaşması, yəni tərəflərinin struktur-semantik cəhətdən bir-biri ilə əlaqələnməsi daxildir;

-struktur sərhədlərini müəyyənləşdirərkən propozisyon üsuldan istifadə olunur;

-mətnin semantik yəni məzmun aspekti tema ilə əlaqədardır və üç mərhələdən ibarətdir; başlanğıc, inkişaf, nəticə. Mətnin quruluşu məzmun aspektindən çox asılıdır. Bir mövzudan başqa bir mövzuya keçirilməsi, sintaktik bütövdən yenisinə keçirilməsi sayılır. Mətnin formasının qurulması əvvəlcə mənasının açılmasından formalaşır və semantik aspekti mətnin strukturunu yaradır. Belə bir mətni nəzərdən keçirək. Məsələn:

Salatın xırmana yaxınlaşdı. Nə isə bir şey arı kimi vızıldayıb havaya süzdü. Birdən elə bil onu daldan itələdilər. Çiynindəki səhəng ağırlaşdı. Qız nə qədər çalışdısa da müvazinətini saxlaya bilmədi. Təngildəyib qabağa yeridi. Ağzı üstə palçığa yeridi. Ağzı üstə palçığa yıxıldı. Səhəng onun çiynindən düşüb üç-dörd addım qabağa dığırlandı. Qız qolunun siyrilmiş yerindən axan qana fikir vermədən durub səhəngi götürmək istədi. Gözünə inanmadı. Səhəng deşilmişdi. Su fışqırıb axırdı [6, 68].

Mətn on üç cümlədən ibarətdir. Bu cümlələr paralel şəkildə intonasiya vasitəsilə sıralanaraq əlaqələnmişdirlər. Mətnin teması “Salatının yıxılması və səhəngin qırılmasıdır”. Mətndə mövzu tədricən açılmağa başlayır. Altıncı, yeddinci, səkkizinci, on birinci cümlələrdə mübtəda buraxılmışdır, lakin mübtədanı asanlıqla yerinə qoymaq olur və heç bir məzmun dəyişməsi olmur.

Bir makromətnin tərkibindəki sintaktik bütövlərin sərhədlərini müəyyənləşdirmək çox zaman çətinlik yaradır. Çətinliyin səbəbi, nitqin icraçısının xətti xarakteri ilə bağlı olur. Xətti xarakter elə bir situasiya yaradır ki, mətn ardıcıl şəkildə tamamlanmış hissələrə bölünə bilər. Lakin, mətnlərdə çox zaman sərhəd hüdudları hiss olunmur, çünki mikromətnlər üst-üstə düşə bilir.

Bəzən elə düşünülür ki, mikromətnlər bir-birinin ardı ilə sıra ilə düzülür. Mikromətnlərin tərkibindəki elementlər başqa mətnin tərkibində doğulur, çox zaman eyni olur və çarpazlaşır, buna görə də sərhədlərini müəyyən etmək çətinləşir. Buna baxmayaraq istər iki-üç cümlədən ibarət mikromətn olsun, istərsə də səhifələrlə uzun mikromətn olsun, cümlədən böyük sintaktik vahid olan mətnlərin sərhədi olmalıdır.

Tekstin danışıq nitqində sərhədlərini müəyyən etməkdə qrammatik faktorlardan, vasitələrdən istifadə olunur. Leksik, morfoloji və sintaktik vasitələr vardır. Bu cür faktorlarda başlanğıcda təkrarlar, son komponentlərdə uzunluq özünü göstərir. Bunlar nitq prosesində olur və hər biri ya ayrı-ayrılıqda, ya da birlikdə özünü göstərə bilir. Ekstralinqvistik faktorların rolu siqnalizatorların roluna nisbətən azalır.

Sərhədləri müəyyənləşdirmək üçün bir sıra prinsiplər irəli sürülmüşdür ki, bulardan biri fonoloji cəhətə əsaslanan pauzadır. Bu prinsipin tərəfdarlarından biri də V.Dressler olmuşdur. Mikromətnin sol və sağ sərhədləri vardır. Sol sərhəd dedikdə haqqında məlumat verilən ilk cümlədir. Sağ sərhəd isə son cümlə sayılır.

Mürəkkəb sintaktik bütövün sərhədinin abzasın sərhədi ilə üst-üstə düşməsinin əlamətləri kimi şifahi nitqdə-səs, yazılı nitqdə isə-qrafiki göstərmək olar. Bu cür hal xüsusi haldır və həmin əlamətlər abzasın sərhədlərini nişanlayır, mürəkkəb sintaktik bütövün də sərhədini təyin edir. Lakin, abzasın sərhədi ilə mürəkkəb sintaktik bütövün sərhədinin üst-üstə düşməsi az olur. Bu o deməkdir ki, mürəkkəb sintaktik vahidin səs və qrafik siqnalları çox zaman olmur. L.M.Loseva etiraf edir ki: ”ümumiyyətlə, mürəkkəb sintaktik bütövün sonundakı formal əlamətləri vermək çox çətindir, bəlkə də, sadəcə olaraq mümkün deyil” [9, 82].

Bu cür görüşlərdən aydın olur ki, mürəkkəb sintaktik bütöv çərçivəli sistemdən ibarət deyil və özünün xüsusi göstəriciləri yoxdur.

L.Q.Fridman, M.Z.Zəkiyev və başqa dilçilər isə, mətnin dəqiq başlama və qurtarma sərhədlərinin ola bilmədiyi fikrində çıxış edirdilər. M.Zəkiyev yazırdı: “Biz mətnin daxilindəki cümlələr arasındakı əlaqə formalarını hərtərəfli araşdırmaqla, mürəkkəb sintaktik bütövlərin daxili strukturunu öyrənmiş olarıq. Çünki əlaqəli mətn bu və ya digər bir bitmiş fikir ifadə edir, ona görə də mürəkkəb sintaktik bütövlərin sərhədləri müstəqil cümlələr arasındakı əlaqələrin öyrənilməsindən asılıdır” [4, 361].

Rus dilçiliyində mətnin sərhədləri müəyyənləşdirilməmişdir. Lakin, dilin müəyyən vahidi başqa dil vahidlərindən fərqlənməli və özünəməxsus sərhədləri olmalıdır.

Sintaktik bütövlərin mövzusunun və semantik sərhədlərinin müəyyənləşməsində, komponentlərin bir-birinə bağlanmasında tema-rema əlaqəsi həll edici amil olur. Hər bir cümlənin teması və reması olur:

-rema yeni informasiyanı bildirir və məntiqi vurğu ilə nisbətən aşağı tonla tələffüz edilərək sonda işlənir;

-tema isə məlum olanı bildirir və cümlədə əvvəl gələrək ton nisbətən yüksək olur.

Mətnin qurulması zamanı nitq aktı temadan remaya doğru irəliləyir, çünki əsas məqsəd temanı nəzərə çatdırmaqla yeni məlumat verməkdir. Lakin, tema-rema münasibətlərinə “Kitabi-Dədə Qorqud”un dilində az təsadüf olunur və həmin münasibətlər mətnin ayrı-ayrı hissələrində işlənir. Məsələn:

Sultanım, Dirsə xanın oğlancığı üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı. Buğayı qoyu verdilər, oğlancıqlara "qaç!" dedilər. Ol üç oğlan qaçdı. Dirsə xanın oğlancuğı qaçmadı,ağ meydanın ortasında baqdı durdı. Buğa dəxi oğlana sürdi gəldi. Dilədi ki, oğlanı həlak qılaydı [2, 27].

Bir sıra dilçilər qeyd edirlər ki, mətnin sərhədləri fikrin birliyi ilə müəyyənləşir. Bu zaman "fikrin birliyi" məfhumunun dəqiq olmadığı nəzərə alınmır. İri həcmli epik əsərlərdə yazıçının fikrini sonlandıran, "aşağı sədd" mətn boyu başlanğıc hissədən əhəmiyyətli məsafədə ola bilər. Romanın həcmi böyük olsa da əvvəldə söylənmiş fikir, əsərin son cümlələrində inkişaf edir, dəqiqləşir, sonlanır. Başqa bir yandan, ən bəsit sadə cümlə bitmiş fikri ifadə edən mühakiməyə uyğun gəlir. Belə nəticəyə gəlmək olur ki, sadə cümlə də mətn kimi çıxış edə bilir.

L.M.Qranovskaya mətnin tərifində yalnız qrafiki ifadəyə malik olduğunu və mətnin sərhədləri məsələsinin daha aktual olduğunu qeyd edirdi. L.M.Qranovskaya bildirir ki, "Biz məktubu, məruzəni, teleqramı, romanı, elmi monoqrafiyanı, reklamı, epitafiyanı və s. mətn adlandırırıq" [7, 16].

Romanlar mətndirlər, amma bir-birindən fərqlənirlər. O.Balzakın "İnsan komediyası" romanı və E.Zolyanın "Ruqon-Makkari" romanı məna və məzmun cəhətdən mətn hesab edilirlər.

Ədəbiyyat siyahısı ; References

1. Allahverdiyeva F.M. Mürəkkəb sintaktik bütövün komponentləri arasında sintaktik əlaqə vasitələri. Dissertasiya. Bakı: 2010, 145 s.
2. Kitabi-Dədə Qorqud. Əsl və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
3. Müasir Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 1985, 289 s.
4. Novruzova N.S. Mətn sintaksisi. Bakı : Təhsil , 2002, 260 s.
5. Ordubadi M.S. Dumanlı Təbriz. I kitab. Bakı: Yazıçı, 1985, 490 s.
6. Şıxlı İ.Q. Dəli Kür. Bakı: Yazıçı, 1982, 400 s.
7. Дресслер В. Введение в лингвистику текста.// «Реферативный журнал» Москва: 1974, сер. 6 ,№2, 54 с.
8. Малов С.А. Памятники древнетюркской письменности. М. Л. 1951. 150 с.
9. Мамедов А.Я. Роль артиклей как связующих элементов текста. Дис. кан. к.ф.н. Москва: 1990, 210 с.